**Aygün Zülfüqar qızı MƏMMƏDOVA**
Doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: 95aygunmamedova@gmail.com

# KƏND YERLƏRİNİN DAVAMLI İNKİŞAFININ TƏMİN EDİLMƏSİNDƏ MƏŞĞULLUĞUN ROLU

**Xülasə**

Azərbaycan Respublikasında regional davamlı inkişafın təmin edilməsi hökümətin qarşısına qoyduğu əsas hədəflərdən biridir. Regionlarda məşğulluğun təmin edilməsi ilə Azərbaycanda regionların bərabər inkişafını təmin etmək və Bakı şəhərinin iqtisadi yüklənməsini azaltmaq olar. Azərbaycan əhalisinin yarısı kənd yerlərində yaşadığı üçün, həmin ərazilərdə yüksək məşğulluğun təşkili bu problemin həllində müstəsna yardım olacaqdır.

Tədqiqatın məqsədi Azərbaycan Respublikasında kənd yerlərinin davamlı iqtisadi və sosial inkişafının təmin edilməsi, kənd yerlərində məşğulluq probleminin aradan qaldırılması və Bakı-Abşeron regionunun iqtisadi yüklənməsinin aradan qaldırılması istiqamətində metodların öyrənilməsindən ibarətidir.

Tədqiqatın metoduna kənd yerlərinin məşğulluq göstəricilərinin araşdırılması, regional inkişaf indeksləri ilə müqayisə və kənd yerlərində iqtisadi səmərəliliyin artırılması ilə bağlı həyata keçirilmiş layihələrin kəmiyyət və keyfiyyət analizlərinin həyata keçirilməsindən ibarətdir.

Tədqiqatın nəticələrinə əsasən Azərbaycanda kənd yerlərinin aqrar sferadan başqa digər istiqamətlərdə də inkişaf etdirilməsi üçün imkanların olduğunu, əsasən turizm, kiçik biznes və ekoaktivlik kimi istiqamətlərdə inkişaf etdirilə biləcəyini bildirir. Nəticələrə həmçinin "Ağıllı kənd" layihəsinin Azərbaycan və dünya miqyasında kənd yerlərinin gələcəyi olması aiddir.

**Açar sözlər:** kənd təsərrüfarı, məşğulluq, davamlı inkişaf, regional inkişaf.

**JEL:** E24, O18, R13
**DOI:** 10.54414/AKGX9207

## Giriş

Tarix boyu Azərbaycanda regionaların inkişafı kənd yerlərinin inkişafı ilə bilavasitə bağlı olub. Sovet hakimiyyəti dövründə Azərbaycan sənayesinin neft, kənd təsərrüfatının isə pambıq üzərində ixtisaslaşması prosesi həyata keçirildi. "Qara qızıl" və "Ağ qızıl" kimi ifadələrin Azərbaycan cəmiyyətində geniş yayılması bunun misalıdır. Təəssüf ki, SSRİ rəhbərliyinin Azərbaycanda belə təktərəfli iqtisadi ixtisaslaşdırılması gələcək problemlərin təməlinin qoydu.

Azərbaycan müstəqillik əldə etdikdən sonra, SSRİ-nin miras buraxdığı bir istiqamətli ixtisaslaşmanın fəsadları göz önünə çıxmağa başladı. İqtisadi çətinliklər, birinci Qarabağ müharibəsi və siyasi qeyri-stabillik rudimentar iqtisadiyyata böyük təzyiq göstərməyə başladı. İnfrastrukturun olmaması və xarici investorların maraqsızlığı ölkə iqtisadiyyatı üçün əlavə çətinliklər yaratmaqda davam ediri. Bu səbəbdən 1995-ci ilə kimi post-sovet ölkələri arasında ən aşağı ÜDM və adambaşına düşən ÜDM məhz Azərbaycanda olub. [1]

Yalnız Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bu vəziyyət kökündən dəyişməyə başladı. Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin müqaviləsi"nin imzalanması ölkə iqtisadiyyatına əlavə investisiya cəlb edilməsinə və nəticədə ölkə gəlirlərinin artımına gətirib çıxartdı.

Ölkə gəlirlərinin bir istiqamətdən artımı Azərbaycan iqtisadiyyatından "Holland Sindromu" kimi problemlərə gətirib çıxartmaq təhlükəsi yaradırdı. [2] Bu səbəbdən iqtisadiyyatın digər qollarının da inkişaf etdirilməsi və iqtisadi mərkəzin Bakı və Abşeron yarmadasından ölkənin digər ərazilərinə köçürülməsi kimi əhəmiyyətli məsələlər yaranmışdı.

Prezident İlham Əliyevin 2003-cü ildə hakimiyyətə gəlməsi ilə ilk işi regionların inkişaf etdirilməsi üçün dövlət proqramlarının qəbul edilməsi oldu. 2004-cü ildən başlayaraq hər 5 il

müddətində bu proqramların qəbulu və təşviq edilməsi siyasətinə başlanıldı. Nəticədə regionların inkişafı üçün yeni istiqamətlər və inkişaf prioritetləri yarandı.[3]

Proqramlar nəticələr göstərməyə başlasa da, kənd yerlərində məşğulluq problemləri qalmaqda davam edirdi. Dövlətin kənd təsərrüfatı sahələrinə ayırdığı subsidiyalara aqrar sferada fəaliyyət göstərən vətəndaşlar üçün optimal vəziyyət yaradırdı. Buna baxmayaraq iş üçün rayon mərkəzləri və ya Bakıya üz tutan vətəndaşların mövcudluğu da iqtisadiyyatın xroniki problemlərinin olduğunun göstəricisidir. Əlavə olaraq Azərbaycanda 1 milyona yaxın qaçqın və məcburi köçkünün olması məşğulluq sferasında əlavə problemlər yaradır və iqtisadiyyata yük olmağa davam edir. 2020-ci ildə 44 günlük Vətən müharibəsindən sonra ərazilərimizin azad edilməsi və dağılmış kəndlərin yenidən qurulması kənd yerlərində əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində yeni cığır açdı.

Əlavə olaraq Dövlət Məşğulluq Agentliyinin regional bölmələrinin yaradılması və kənd əhalisinin tam məşğulluq həddinə çatdırılması üçün layihələrlə çıxış etməsi problemin həlli istiqamətində əsas addımlardan biridir.[4]

**Kənd yerlərində davamlı inkişafın mahiyyəti və amilləri**

Dünya əhalisinin təxmini 51% hal-hazırda kənd yerlərində yaşayır. Azərbaycanda bu nisbət 48% təşkil edir. Əhalinin təxminən yarısının kənd yerlərində yaşaması, dövlətin qarşısında həmin vətəndaşların sosial-iqtisadi vəziyyətlərinin yaxşılaşdırılması tələbini qoyur.

Azərbaycan iqtisadiyyatında Bakı şəhərinin çəkisinin ağır olması və bu səbəbdən əhalinin şəhərlərə axışması, “yalançı urbanizasiya” kimi neqativ iqtisadi və sosial amillərin yaranmasına səbəb olur.

Bundan əvvəl qeyd etdiyimi kimi, 2004-cü ildən başlayaraq Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə regionların iqtisadi-sosial inkişafı ilə bağlı hər 5 il ərzində dövlət proqramları qəbul edilir. Bu proqramların əsas məqsədi regionlarda iqtisadi artımın təşviq edilməsi, əhali güzəranının yaxşılaşdırılması və regionun ümumi inkişafının təmin edilməsindən ibarətdir.

Regionlarda əhalinin əksəriyyəti şəhərlərdə deyil, kənd yerlərinə məskunlaşıblar, bu səbəbdən dövlət proqramlarının əsas hədəf bazası kənd əhalisi hesab edilir. Kəndlər əsasən maldarlıq, əkinçilik və onunla bağlı olan digər kənd təsərrüfatı sahələri ilə illərdir ki, ixtisaslaşıblar. Dövlət tərəfindən aqrar sfera üçün subsidiyaların ayrılması, kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırmaq kimi siyasətlərin həyata keçirilməsi bu prizmadan əsas amillərdən biridir.

Buna baxmayaraq, son illərdə fermer təsərrüfatlarının rayon mərkəzlərinə yaradılması, infrastrukturların ancaq rayon mərkəzlərində qurulması və xarici investorların kəndlərə deyil, birbaşa rayon mərkəzlərində yerləşmiş layihələrə pul ayırması kənd icmalarının inkişafına mənfi təsir göstərən əsas amillərdən biridir.[5]

Kənd yerlərində davamlı inkişafa çatmağın əsas mahiyyəti aşağıdalı qaydada həyata keçirilir:

- Kənd icmalarının inkişaf etdirilməsi kənd əhalisinin emiqrasiyasının qarşısını alır. Belə ki, kənd əhalisi kənddə iqtisadi vəziyyətin qənaətbəxş olduğunu bilərək, oranı tərk etmirlər;
- Yalançı urbanizasiya, yəni əhalinin qeyri-qanuni şəkildə şəhərlərdə məskunlaşması və bununlada ölkə iqtisadiyyatının bir regionda cəmlənməsi prosesinin qarşısı alınır. Bu amil ölkənin regionları üzrə iqtisadi balansın qorunmasının gətirib çıxarır və regional inkişafa təkan verir;
- Kənd icmalarında kənd təsərrüflarının inkişaf etdirilməsi, kənd təsərrüfatı bazarında rəqabətli mühitinin saxlanmasına səbəb olur. Rəqabətli mühir özü ilə iqtisadi inkişaf, davamlı iqtisadi artım və çeşidlilik gətirir. Kənd təsərrüfarının ölkədə inkişaf etməsi qida və tekstil kimi strateji sənaye məhsullarının ölkənin özü-özünü təmin etməsinə səbəb olur ki, bu da gələcəkdə həmin məhsulların ixrac potensialının yaranmasına və ölkə iqtisadiyyatının “müsbət saldo” vəziyyətinə keçməsinə səbəb olur.

Kənd yerlərinin inkişaf etdirilməsi üçün bir neçə faktorlar vardır. Onlar aşağıda qeyd olunmuşdur:

- Kənd təsərrüfatı üçün dövlət tərəfindən əlavə güzəştlərin və dəstəyin verilməsi;
- Kənd yerlərində məşğulluqla bağlı problemlərin həll edilməsi;
- Kənd yerlərində qeyri-aqrar sahələrin inkişaf etdirilməsi ilə bağlı dövlət dəstəyi;
- "Ağıllı Kənd" layihəsinin tətbiq edilməsi.

**Kənd ərazi subyektlərinin davamlı inkişafının idarə edilməsinin strukturunda məşğulluğun yeri və rolu**

Əhalinin iqtisadi inkişafı məşğulluq növləri ilə əldə olunan qazanc hesabına təmin edilir. Bunu hər hansı bir regionun inkişaf dinamikasına da aid edə bilərik. Azərbaycan Respublikasında kənd ərazi subyektlərində əhalinin iqtisadi vəziyyətini anlamaq üçün statikstik göstəricilərə nəzər yetirmək lazımdır.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən Azərbaycanda 2005-ci ildə ümumi işsiz şəxslərin sayı əmək qabiliyyətli əhali sayının 7.3%-ni təşkil edirdisə, 2019-cu ildə bu göstərici 4.8%-ə qədər azalmışdır. Araşdırmalardan aydın olur ki, hər hansı bir məşğulluq sahəsində olan əhalinin 35-36%-i kənd təsərrüfatı sahələrində çalışır. Bu sahədə çalışan əhali ölkə üzrə orta hesabla 2019-cu ildə müəyyən edilmiş normanın (2019-cu il üçün 40 saatlıq iş həftəsində iş vaxtının illik norması 1926 saat təşkil edir) 15-20% qədərini məşğul olmuşdular. [6]

Təəssüf ki, bu sahədən əldə edilən gəlir kifayət qədər yüksək deyil. Kənd yerlərində insan resurslarının və yüksək ixtisaslı kadrların çatışmazlığı öz növbəsində kənd yerlərdə ümumi inkişafa mənfi təsir edən əhəmiyyətli bir problemə çevrilir. Hal-hazırki əmək haqqı səviyyəsi, eləcə də regionlarda fəaliyyət göstərən digər qurumlardakı iş şəraiti gənc yaradıcı insanları işə cəlb etməyə lazımı dərəcədə kömək edə bilmir. [7]

Bütün bu problemləri nəzərə alaraq, dövlət tərəfindən regionlarda məşğulluq mərkəzlərinin yaradılması və dövlət tərəfindən əlavə olaraq dəstəyin verilməsi siyasəti həyata keçirilməyə başlanıldı.

Kənd yerlərində əhalisinin əsas məşğulluq sahəsi kənd təsərrüfatı sahəsi olduğu üçün, bu saha özünüməşğulluq kriteriyasına uyğundur. Məşğulluq Mərkəzlərinin funksiyası isə kəndlərdə təkcə muzdlu əmək münasibətlərinə dayanan məşğulluq proqramlarının deyil, həmçinin özünün məşğulluğun digər sahələrinin inkişafı ilə bağlı layihələrin hazırlanmasından ibarətdir.

Məşğulluq Agentliyinin kənd yerlərinin inkişafı ilə bağlı hazırladığı əsas layihə 2021-ci ildə təşəkkül tapmış "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı" layihəsidir. Layihə ilk dəfə pilot olaraq KOBİA və DMA-nın dəstəyi, "Odlar Yurdu" Gənclər İctimai Birliyinin təşkilatçılığı ilə İsmayıllı rayonunun Buynuz, Xanagah, Topçu, Təzəkənd, Sumağanlı kəndlərində və Lahıc qəsəbəsində həyata keçirilib. Layihə çərçivəsində İsmayıllıda 14 kənd qonaq evi yaradılıb, 300 nəfərə yaxın kənd sakini sahibkarlıq və özünüməşğulluq imkanları barədə məlumatlandırılıb. Bununla da 14 ailədən olan 40 nəfərə yaxın qadının və gəncin məşğulluğu təmin edilib. [4]

Layihənin əsas məğzi kənd təsərrüfatı ilə yanaşı kənd yerlərində turizm sektorunun inkişafı və aqroturizm kimi layihələrin həyata keçirilməsindən ibarətdir. Aqroturizm İsveçrə, Norveç, Çin və Finlandiya kimi ölkələrdə kənd yerlərinin turizm mərkəzlərinə çevrilməsini qarşısına məqsəd qoyan fenomendir. Azərbaycanda həmin layihənin həyata keçirilməsi üçün seçilmiş pilot kəndlərin əhalisinə bunlarla bağlı biznes klasslar keçilib və kənd ərazilərində turizmə yararlı qonaq evlərinin təmir-bərpa işlərinin həyata keçirilməsi öz əksini tapıb. [8]

Kənd yerlərində iqtisadi inkişafın və məşğulluğun təmin edilməsinin əsas yollarından biri də, "Ağıllı kənd" layihəsinin tətbiq edilməsindən ibarətdir. "Ağıllı kənd" layihəsi kəndin ekoloji təmiz mənbələr hesabında öz daxili enerji və digər tələbatlarının ödənilməsi səviyyəsinə çatması və növbəti mərhələdə digər ərazilərə ixrac işlərinin həyata keçirilməsi layihəsidir. Layihənin məğzindən göründüyü kimi, əhali kənd yerlərində müxtəlif sahələrdə ekoloji təmiz resurslardan istifadə edərək, müəyyən məşğulluq işləri ilə məşğul olur. Beləki, bu müxtəliflik kənd ərazi subyektlərinin ənənəvi olaraq birtərəfli deyil, daha çox şaxəli sferalardan inkişaf etdirilməsini özündə əks etdirir.

Bu layihə həlaki Azərbaycan Respublikası Zəngilan rayonunun Ağalı kəndində müharibədən sonra yenidənqurma layihəsi kimi

həyata keçirilib. Ağalı kəndinin yenidən qurulması üstün nəticələr verdiyi üçün, işğaldan azad edilmiş digər ərazilərdə də bəzi kəndlərin yenidən qurulması işinin "Ağıllı kənd" layihəsi ilə həyata keçirilməsinə dövlət tərəfindən təsdiq verilib. [9]

**Məşğulluq amili nəzərə alınmaqla kənd yerlərinin inkişaf səviyyəsinin qiymətləndirilməsinin metodoloji əsasları**

Kənd yerlərinin inkişaf səviyyəsi bir neçə amil ilə ölçülə bilər. Bura gəlir səviyyəsi, kəndtəsərrüfatının inkişaf dinamikası və s. amillərin səviyyəsinin ölçülməsi ilə ola bilər. Ümumilikdə götürdükdə isə ölkə üzrə hər bir kəndin ayrı-ayrılıqda inkişaf səviyyəsi qiymətləndirilməsi düzgün yanaşma deyil. Düzgün statistik yanaşma kənd yerlərinin inkişaf səviyyəsinin regional miqyasda ölçüləməsini aparılmasından ibarətdir. Regional qiymətləndirmə fərdi qiymətləndirmədən aşağıdakı xüsusiyyətlərinə görə daha üstün olur.

- Regionların təsnifləşdirilməsi əsasən iqtisadi, sosial və mədəniyyət amilləri nəzərə alınmaqla edilir. Bu səbəbdən həmin ərazidə yerləşən kənd yerlərinin ümumi iqtisadi-sosial vəziyyətləri təxminən oxşar olur.
- Eyni region daxilində kənd yerlərinin ayrı-ayrılıqda qiymətləndirilməsi ümumi xəta əmsalının artımına səbəb ola bilər, çünki burda bir çox amillər(məktəblərin sayı, xəstəxanaların sayı, əhali sayına başqa amillərin nisbəti və s.) çaşdırıcı nəticələr verə bilər;
- Azərbaycan misalında kəndlərin ayrı-ayrı qiymətləndirilməsi vaxtı ilə işğalda olmuş və azad edilmiş kənd yerlərinin sayı 900-ə yaxındır ki, bu da öz növbəsində hesablamada böyük xətaya səbəb olur.

Yuxarıdakı xüsusiyyətlərin nəzərə alınması ilə biz Azərbaycan Respublikasında kənd yerlərinin inkişaf səviyyəsinin regional formada analiz edə bilərik.

Kənd yerlərinin inkişaf dinamikası "Rural Development Index"(RDI), yəni "Kənd yerlərinin inkişaf indeksi" ilə hesablanır. İndek özü-özlüyündə seçilmiş regionda əhali gəlirlərinin səviyyəsi, adambaşına düşən tibb və təhsil müəssislərinin sayı, yol və kommunal infrastrukturunun vəziyyətinin ortalaması çıxarılmaqla həyata keçirilir. [10]

**Cədvəl 1**

**Azərbaycan Respublikasının regionlarında adambaşına düşən gəlir səviyyəsi və indeksləşmə. [11]**

| İqtisadi rayonlar | Gəlirlər (AZN) | İndeksləşmə |
|---|---|---|
| Bakı şəhəri | 327 | 1 |
| Naxçıvan Muxtar Respublikası | 322.7 | 0.92 |
| Şərqi Zəngəzur | 310.6 | 0.85 |
| Quba-Xaçmaz | 304.5 | 0.77 |
| Qazax-Tovuz | 303.9 | 0.69 |
| Dağlıq Şirvan | 303.2 | 0.62 |
| Abşeron-Xızı | 299.7 | 0.54 |
| Mil-Muğan | 297.5 | 0.46 |
| Şirvan-Salyan | 293.6 | 0.39 |
| Gəncə-Daşkəsən | 286.3 | 0.31 |
| Şəki-Zaqatala | 285.8 | 0.24 |
| Qarabağ | 281.1 | 0.16 |
| Lənkəran-Astara | 280.9 | 0.08 |
| Mərkəzi Aran | 273.5 | 0 |

Araşdırmada Azərbaycan regionlardə RDI indeksinə əlavə olaraq regionlar üzrə məşğulluq amili də əlavə edilərək, RDI-i növbəti qaydada hesablanacaq. Əhali gəlirlərinin regionlar üzrə indeksi çıxarılacaq. Daha sonra regionların tibb və təhsil müəssisə sayı təsnifləşdirilməsi və əhali üzrə nisbəti çıxarılır və əvvəlki hesablamanın üzərinə gəlinir. Ardınca yol və kommunal

infrastruktur səviyyəsi müəyyən edilir və indeksləşdirilir. Ardınca regionda əhalinin məşğlluq səviyyəsi müəyyən edilir.

**Cədvəl 2**

Azərbaycan Respublikasının regionlarında tibbi və təhsil müəssisələri və onların indeksləşməsi. [12] [13]

| Region | Xəstəxanaların sayı | Təhsil müəssisəsi sayı | Xəstəxana indeksi | Təhsil müəssisəsi indeksi |
|---|---|---|---|---|
| Bakı şəhəri | 158 | 883 | 0.65 | 1.00 |
| Lənkəran - Astara | 14 | 683 | 0.06 | 0.92 |
| Qarabağ | 15 | 628 | 0.06 | 0.85 |
| Şəki - Zaqatala | 10 | 576 | 0.04 | 0.77 |
| Mərkəzi Aran | 12 | 515 | 0.05 | 0.69 |
| Qazax-Tovuz | 10 | 490 | 0.04 | 0.61 |
| Quba - Xaçmaz | 11 | 477 | 0.05 | 0.54 |
| Gəncə -Daşkəsən | 19 | 383 | 0.08 | 0.46 |
| Şərqi Zəngəzur | 25 | 346 | 0.10 | 0.38 |
| Mil-Muğan | 5 | 340 | 0.00 | 0.31 |
| Dağlıq Şirvan | 5 | 288 | 0.00 | 0.23 |
| Şirvan-Salyan | 9 | 244 | 0.04 | 0.15 |
| Naxçıvan Muxtar Respublikası | 28 | 237 | 0.11 | 0.08 |
| Abşeron-Xızı | 21 | 213 | 0.09 | 0.00 |

Bütün göstəriciliər regional nisbətlərinə görə 0 və 1 rəqəmləri arası indeksləşdirilir və onların ədədi ortası tapılır. Ədədi ortadan alınan nəticə 1-ə yaxın olarsa, regionda kənd yerlərinin inkişaf indeksi yuxarı, 0-a yaxın olarsa isə aşağı qiymətləndirilir.İlk öncə əhali gəlirlərinin hesabatı ilə tanış olaq. Aşağı cədvəldə Azərbaycan Respublikasının İqtisadi Regionları üzrə 2022-ci ildə adambaşına düşən gəlirləri görə bilərik. Gəlirlər ədədi ortaları tapılmaqla 0 və 1 arası indekləşdirilib. Belə ki, 1 rəqəmi ən yuxarı nəticəsi olan regionun indeksi, 0 rəqəmi isə ən aşağı nəticəsi olan regionun indeksidir.

Regionlarda əhali gəlirlərinin indeksləşdirilməsindən sonra, növbəti mərhələ təhsil və tibbi müəssislərin indeksləşdirilməsinin həyata keçirilməsidir. Hər iki indeks aşağıdakı cədvəldə qeyd olunub. Nəzərə almaq lazımdır ki, xəstəxana saylarının regionlarda arasında nisbəti Bakıda daha çox olduğu üçün, onun indeksləşdirilməsi fərqli statistik metodla aparılıb. Təhsil müəssisələrinin(məktəbəqədər, orta, ümumi təhsil və ali təhsil) indeksləşdirilməsi isə normal qaydada aparılıbNövbəti cədvəl özündə Azərbaycan Respublikasının regionlarının yol infrasturkturunu və kommunal təsərrüfat sferalarını özündə birləşdirir. Araşdırma kənd yerlərindən olduğu üçün ancaq 4-cü və 5-ci dərəcəli yolların məlumatları götürülüb. Kommunat infrastruktur üçün isə ev təsərrüfatlarının orta ölçüsü çıxarılıb və hər iki nəticə indekslənib.

Son meyar kimi Azərbaycan Respublikasının regionları üzrə məşğulluq göstəricilərini əlavə etsək, RDI indeksini çıxara bilərik. Məşğulluq indeksi məşğul əhalinin iqtisadi fəal əhaliyə(əmək qabiliyyətli əhali) nisbətinin 0 və 1 arası indeksləşdirilməsi nəticəsində yaranıb.

**Cədvəl 3**

**Azərbaycan Respublikasının regionlarında yol infrastukruru və ev təsərrüfatlarını orta ölçüsü və onların indeksləşməsi. [14] [15]**

| İqtisadi rayonlar üzrə | Ev təsərrüfatı | Yollar(km) | Ev təsərrüfatı indeks | Yol indeksi |
|---|---|---|---|---|
| Abşeron-Xızı | 4.13 | 173 | 0.11 | 0.04 |
| Bakı şəhəri | 3.63 | 0 | 0 | 0 |
| Dağlıq Şirvan | 4.39 | 970 | 0.85 | 0.65 |
| Gəncə-Daşkəsən | 4.25 | 743 | 0.41 | 0.39 |
| Lənkəran-Astara | 4.37 | 1490 | 0.78 | 1 |
| Mərkəzi Aran | 4.24 | 1183 | 0.33 | 0.83 |
| Mil-Muğan | 4.41 | 676 | 0.93 | 0.3 |
| Naxçıvan Muxtar Respublikası | 4.15 | 625 | 0.18 | 0.21 |
| Qarabağ | 4.28 | 863 | 0.63 | 0.56 |
| Qazax-Tovuz | 4.27 | 773 | 0.48 | 0.48 |
| Quba-Xaçmaz | 4.34 | 1160 | 0.7 | 0.74 |
| Şəki-Zaqatala | 4.28 | 1335 | 0.55 | 0.91 |
| Şərqi Zəngəzur | 4.2 | 0 | 0.26 | 0 |
| Şirvan-Salyan | 4.55 | 483 | 1 | 0.13 |

**Cədvəl 4**

**Azərbaycan Respublikasının regionlarında fəal və məşğul əhalinin sayı, nisbəti və indeksləşdirilməsi**

| Region | Məşğul əhali(min nəfər) | Fəal əhali(min nəfər) | Məşğulluq faizi | İndex |
|---|---|---|---|---|
| Naxçıvan Muxtar Respublikası | 253.4 | 253.7 | 99.88% | 1 |
| Mil-Muğan | 246 | 258.5 | 95.16% | 0.92 |
| Şəki-Zaqatala | 323.3 | 340.4 | 94.98% | 0.84 |
| Qazax-Tovuz | 343.6 | 362.1 | 94.89% | 0.77 |
| Quba-Xaçmaz | 264.8 | 279.3 | 94.81% | 0.69 |
| Lənkəran | 443.7 | 469.9 | 94.42% | 0.61 |
| Dağlıq Şirvan | 155.8 | 165 | 94.42% | 0.53 |
| Qarabağ | 402.4 | 427.3 | 94.17% | 0.45 |
| Şirvan-Səlyan | 239.6 | 254.9 | 94.00% | 0.37 |
| Mərkəzi Aran | 354.8 | 379 | 93.61% | 0.29 |
| Gəncə-Daşkəsən | 318.1 | 341 | 93.28% | 0.21 |
| Abşeron-Xızı | 284.6 | 305.1 | 93.28% | 0.13 |
| Bakı | 1195.6 | 1291.5 | 92.57% | 0.06 |
| Şərqi-Zəngəzur | 162.5 | 176.2 | 92.22% | 0 |

Alınan indeksləri regionlar üzrə RDI-a tətbiq etsək, aşağı cədvəldəki nəticə əldə edilir. Göründüyü kimi, ən yüksək RDI indeks 0.58 göstəricisi ilə Quba-Xaçmaz iqtisadi rayonuna, ən aşağı isə 0.15 göstəricisi ilə Abşeron-Xızı iqtisadi regionunda yerləşir. Bakı şəhəri inzibati-ərazi vahidinə görə cədvəldən kənd yerləri olmadığına görə çıxarılıb.

**Cədvəl 5**

**Azərbaycan Respublikasının regionlarında məşğulluq amili nəzərə alınmaqla RDI.**

| Region | Məşğulluq | Kommunal | Yol | Xəstəxana | Təhsil | Gəlir | RDI |
|---|---|---|---|---|---|---|---|
| Quba-Xaçmaz | 0.69 | 0.7 | 0.74 | 0.05 | 0.54 | 0.77 | **0.58** |
| Şəki-Zaqatala | 0.84 | 0.55 | 0.91 | 0.04 | 0.77 | 0.24 | **0.56** |
| Lənkəran-Astara | 0.61 | 0.41 | 1 | 0.06 | 0.92 | 0.08 | **0.51** |
| Qazax-Tovuz | 0.77 | 0.48 | 0.48 | 0.04 | 0.61 | 0.69 | **0.51** |
| Mil-Muğan | 0.92 | 0.93 | 0.3 | 0 | 0.31 | 0.46 | **0.49** |
| Dağlıq Şirvan | 0.53 | 0.85 | 0.65 | 0 | 0.23 | 0.62 | **0.48** |
| Qarabağ | 0.45 | 0.63 | 0.56 | 0.06 | 0.85 | 0.16 | **0.45** |
| Naxçıvan Muxtar Respublikası | 1 | 0.18 | 0.21 | 0.11 | 0.08 | 0.92 | **0.42** |
| Mərkəzi Aran | 0.29 | 0.33 | 0.83 | 0.05 | 0.69 | 0 | **0.37** |
| Şirvan-Salyan | 0.37 | 1 | 0.13 | 0.04 | 0.15 | 0.39 | **0.35** |
| Gəncə-Daşkəsən | 0.21 | 0.41 | 0.39 | 0.08 | 0.46 | 0.31 | **0.31** |
| Şərqi Zəngəzur | 0 | 0.26 | 0 | 0.1 | 0.38 | 0.85 | **0.27** |
| Abşeron-Xızı | 0.13 | 0.11 | 0.04 | 0.09 | 0 | 0.54 | **0.15** |

Azərbaycan Respublikasının ümumi RDI indeksi 0.49 təşkil edir(Bakı şəhəri çıxılmaqla). Bu nəticə qonşu ölkələrdən Türkiyə, Ermənistan və İrandan çoxdur. Gürcüstan və Rusiyanın RDI indeksi isə Azərbaycandan çoxdur. Ümumilikdə dünya miqyasında baxanda Azərbaycan Respublikası kənd yerlərinin inkişaf səviyyəsinə görə dünya ölkələrinin 60%-dən daha yaxşı nəticə göstərib. Bura həmçinin, insan inkişaf indeksinin Azərbaycanda yaxşı olması, kənd yerlərində dövlət tərəfindən subsidiyaların ayrılması və dövlət tərəfindən regionların sosial-iqtisadi inkişafının təşkil edilməsi üçün dövlət proqramlarının tətbiq edilməsi də öz rolunu göstərmişdir.

**Nəticə**

Azərbaycan əhalisinin təxminən yarısının kənd yerlərində yaşaması və həmin əhalinin 1/3-nin məşğul əhali kateqoriyasına alınması ölkə üzrə ümumi məşğulluq indeksinə mənfi təsir göstərən amildir. Bu amilin aradan qaldırılması ölkə iqtisadiyyatının davamlı inkişafına töhvə verən əsas amillərdən biri olacaqdır.

Kənd yerlərində turizm sahələrinin yaradılması ilə İsmayıllı rayonunda yaradılmış pilot layihəni gələcəkdə Azərbaycanın digər turistik ərazilərinə tətbiq etmək həmin ərazilərdə də kənd əhalisinin məşğulluq problemlərinin aradan qaldırılmasına böyük köməklik göstərəcək. Quba rayonunun Xınalıq, Buduq, Cek, Əsrik, Qrız, Təngaltı, Qusar rayonunun Laza, Qrızqazma kimi kəndləri, həmçinin Goranboy, Daşkəsən, Kəlbəcər, Lerik, Astara, Qəbələ, Şəki, Qax, Oğuz, Zaqatala və Balakən rayonlarında eyni aqroturizm layihələrinin tətbiqi həmin bölgələrdə kənd ərazi subyektlərinin inkişafı üçün əvəzolunmaz nəticəyə səbəb olacaq.

Bundan əlavə "Ağıllı kənd" layihəsinin ölkə miqyasında tətbiq edilməsi gələcəkdə Azərbaycanın digər ərazilərdə də iqtisadi inkişafdan qalmış və geriləyən kənd yerlərinin yenidən qurulması və davamlı inkişafının təmin edilməsinə əvəzsiz rol oynayacaq. Buna misal olaraq, gələcəkdə Qazaxın hal-hazırda erməni nəzarətində olan 7 kəndinin gələcəkdə Azərbaycana qaytarılmasından sonra həmin ərazilərin də eyni qaydada "Ağıllı kənd" konsepti ilə yenidən qurulması aiddir.

Kənd yerlərində kənd təsərrüfatından başqa digər özünüməşğulluq sahələrinin qurulması və bura dövlət dəstəyi, gələcəkdə həmin ərazilərdə qeyd olunan sahələrin inkişaf etdirilməsi üçün yerli və xarici investorların maraq dairələrinə düşməsi ölkə büdcəsinə əlavə gəlirlərin daxil olmasına və kənd subyektlərinin inkişafına təkan verəcəkdir.

Ümumi olaraq, kənd ərazi subyektlərinin davam inkişafı, kənd əhalisinin iqtisadi vəziyyətinin yaxşılaşmasına səbəb olacaqdır ki, bu da öz növbəsində ölkə iqtisadiyyatının regionlar üzrə diversifikasiyasının dərinləşməsinə, yalançı urbanizasiyaların azalmasına və iqtisadiyyatın

sektoral şaxələndirilməsinin davamlı həddə saxlanılmasına yardımçı olacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. World Bank, IMF, OECD, European Bank of Reconstruction and Development. "Economy of USSR".
2. İ Niftiyev. "İqtisadiyyatda Holland Sindromu". "Əkinçi" blogu; 2022
3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Regionların Sosial-İqtisadi İnkişafı ilə bağlı dövlət proqramları.
4. Dövlət Məşğulluq Agentliyi. "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı" layihəsi; 2021.
5. Salahov S.V., Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, "Nurlar" nəşriyyatı; 2004
6. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Əmək Bazarı – 2022 hesabatı.
7. E.T. Ələkbərli. "Kənd yerlərinin dayanıqlı inkişafı və yaşayış səviyyəsinin yaxşılaşdırılması; 2020.
8. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi nəzdnində Aqrar Tədqiqatlar Mərkəzi. "Azərbaycanda kənd yerlərinin inkişafı və milli aqroturizm sisteminin yaradılması mövzusunda seminar". Bakı – 2022.
9. Abuzərli C., "Regionlarda məşğulluğun təmin edilməsi yollar"; 2018.
10. Kim T.H, Yang S.R. Construction of Rural Development Index. Journal of Rural Development 39(special issue), 2020, 113-142.
11. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. 2022-ci il üzrə Azərbaycan regionlarında əhali gəlirlərinin səviyyəsi.
12. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. 2022-ci il üzrə Azərbaycan regionlarında tibbi müəssisələr haqqında məlumat.
13. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. 2022-ci il üzrə Azərbaycan regionlarında təhsil müəssisələr haqqında məlumat.
14. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. 2022-ci il üzrə Azərbaycan regionlarında ümumi istifadədə olan avtomobil yollarının uzunluğu, km.
15. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. 2022-ci il üzrə Azərbaycan regionlarında ev təsərrüfatlarının orta ölçüsü.
16. "The Dutch Disease". The Economist. 1977
17. Məşğulluğun təmin edilməsi sahəsində bələdiyyələrin rolu. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi nəşrləri.
18. Mustafayev S.R., KƏND YERLƏRİNDƏ ƏHALİ MƏŞĞULLUĞUNUN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ; 2021.

**Айгюн Зульфугар гызы МАММАДОВА**
Докторант, Азербайджанский Государственный Экономический Университет

## РОЛЬ ЗАНЯТОСТИ В ОБЕСПЕЧЕНИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ СЕЛ

### Резюме

Обеспечение устойчивого регионального развития в Азербайджанской Республике является одной из основных целей, поставленных правительством. Обеспечивая занятость в регионах, можно обеспечить равноправное развитие регионов в Азербайджане и снизить экономическую нагрузку на город Баку. Поскольку половина населения Азербайджана проживает в сельской местности, организация высокой занятости в этих районах станет исключительным подспорьем в решении этой проблемы.

Целью исследования является изучение методов в направлении обеспечения устойчивого экономического и социального развития сельских районов Азербайджанской Республики, устранения проблемы занятости в сельской местности, устранения экономического бремени Баку-Апшеронского региона.

Метод исследования заключается в изучении показателей занятости сельских территорий, сопоставлении их с показателями регионального развития, проведении количественного и

качественного анализа реализованных проектов, связанных с повышением экономической эффективности в сельской местности.

По результатам исследования констатируется наличие возможностей для развития сельских территорий в Азербайджане в других направлениях помимо сельскохозяйственной сферы, в основном в таких направлениях, как туризм, малый бизнес и эко-деятельность. Результаты также показывают, что проект Smart Village – это будущее сельских районов в Азербайджане и во всем мире.

**Ключевые слова:** сельское хозяйство, занятость, устойчивое развитие, региональное развитие.

**Aygun Zulfugar gizi MAMMADOVA**
Doctorate, Azerbaijan State University of Economics

## THE ROLE OF EMPLOYMENT IN ENSURING SUSTAINABLE RURAL DEVELOPMENT

**Abstract**: Ensuring regional sustainable development in the Republic of Azerbaijan is one of the main goals set by the government. By providing employment in the regions, it is possible to ensure the equal development of the regions in Azerbaijan and reduce the economic burden on the city of Baku. Since half of the population of Azerbaijan lives in rural areas, the organization of high employment in those areas will be an exceptional help in solving this problem.

The purpose of the study is to study methods in the direction of ensuring sustainable economic and social development of rural areas in the Republic of Azerbaijan, eliminating the employment problem in rural areas, and eliminating the economic burden of the Baku-Absheron region.

The method of the research consists of researching employment indicators of rural areas, comparing them with regional development indices, and carrying out quantitative and qualitative analyzes of the implemented projects related to increasing economic efficiency in rural areas.

Based on the results of the research, it is stated that there are opportunities for the development of rural areas in Azerbaijan in other directions besides the agricultural sphere, mainly in such directions as tourism, small business and eco-activity. The results also show that the Smart Village project is the future of rural areas in Azerbaijan and around the world.

**Key words:** agriculture, employment, sustainable development, regional development.

**Daxil olub:** 15.04.2023